*Yoluxucu heyvan xəstəlikləri*



**Məzmunu**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il 7 mart tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Baytarlıq sahəsində profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşdirilən heyvanların xüsusi təhlükəli xəstəliklərinin Siyahısı”nda əks olunan xüsusi təhlükəli heyvan xəstəlikləri istisna olmaqla, digər yoluxucu xəstəliklərin profilaktikası, müayinəsi və müalicəsi.

**Müraciətin edilmə yeri və növü**

Rayon (şəhər) heyvan sağlamlığı və baytarlıq xidməti idarələrinin (DAİM-in) inzibati binası, telefon və ya mail vasitəsilə.

**Xidmətin həyata keçirilmə formaları**

Xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız daşıyıcıda əks olunması.

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması**
Ərizə;
Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəd;
Hüquqi şəxsin dövlət reyestrindən çıxarış;
Vergi ödəyicisinin uçota alınması barədə şəhadətnamə;
Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

**Xidmətin həyata keçirilməsi üçün doldurulması tələb olunan müvafiq sənədlərin (ərizə, blank və s.) nümunələri**
Ərizə nümunəsi.

**Xidmətin həyata keçirilməsi müddəti**
5 iş günü ərzində.

**Müraciətin ödənişli və ya ödənişsiz əsaslarla həyata keçirilməsi, ödənişli xidmətin məbləği, hüquqi əsası və ödənilmə üsulları**
Bank vasitəsilə.
Ödəniş Azərbaycan Respublikası NazirlərKabinetinin “Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği”nin təsdiq edilməsi haqqında 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş xidmət haqlarına uyğun olaraq, özəl baytarlıq subyektləri ilə heyvan sahibləri arasında qarşılıqlı razılaşma yolu ilə həyata keçirilir.